# MİRZƏ ƏLİ MÖCÜZÜN HƏYATININ ŞAHRUD MƏRHƏLƏSİ

**F.Y.XƏLİLOV**
*AMEA Naxçıvan Bölməsi, İncəsənət, dil və ədəbiyyat institutu*
*ferman xalilov@yahoo.com*

*Məqalədə tanınmış şair Mirzə Əli Möcüzün həyatının bir illik Şahrud mərhələsində keçirdiyi mənəvi sansırtılarda yaradıcılığının duyğunluq dövrünə qədəm qoymasından bəhs edilir.*

M.Ə.Möcüz 61 illik ömrünün son bir ilini anadan olduğu Şəbüstər qəsəbəsindən xeyli uzaqda – İranın şimal-şərqində yerləşən Şahrud şəhərində yaşamışdır. Onun həyatının Şahrud mərhələsinə dair Şimali Azərbaycan möcüzşünaslarının mülahizələrini bircə cümlə ilə ifadə etmək olar: Möcüz 1933-cü ildə Şahruda köçmüş və 1934-cü ildə orada vəfat etmişdir. Bu məsələ haqqında ilk dəfə nisbətən geniş məlumat bizim tərəfimizdən verilmişdir (2, 66-67). Cənubi Azərbaycan möcüzşünaslarından Y.Şeyda (10,s.«S»), M.Niqabi (9, 3), M.T.Zehtabi (13, 50) və H.S.Qurraie (3, 47-59) də həmin məsələnin bəzi detalları haqqında söz açmışlar. Bu günədək mütəxəssislərin müəyyən elmi qənaətləri və əldə etdiyimiz bir sıra mötəbər mənbələr və faktlar şairin həyatının Şahrud mərhələsi haqqında daha təfsilatlı, ümumiləşdirilmiş və yeni mülahizələr irəli sürməyə imkan verir.

M.Ə.Möcüzün Şahruda köçməsinin səbəbini başqa mənbələrə əl atmadan elə şairin öz şeirlərinə istinad etməklə müəyyənləşdirmək mümkündür. O, dostu M.Məmmədəliyə ünvanladığı bir şeirində mürtəce qüvvələrin təzyiqi ilə Şəbüstəri tərk etməsinin əsl səbəbinə işarə edərək yazır: «Dedilər bu dinsizi o yana göndərsək, buğda ucuzlaşacaq, ancaq əksinə oldu ... Əgər bahalıq mənim dinsiz və imansızlığıma görə idisə, mən gedəndən sonra niyə ucuzluq olmadı? Niyə zəlzələ o yerləri viran etdi? Niyə Şəbüstərdə qənnadı dükanı yandı? İndi mən orada yoxam. İstədikləri qədər təpələrinə saman səpsinlər, başlarını rahatca yarsınlar» (5, 205). Göründüyü kimi Möcüzün Şəbüstəri tərk etməsinin səbəbi mürtəce qüvvələr tərəfindən «dinsiz və imansız» elan olunması və bütün fəlakətlərin baiskarı hesab edilməsi olmuşdur. Araşdırmalar göstərir ki, Möcüz həqiqətən də İstanbuldan Şəbüstərə qayıdan gündən «buğdaya sarı, qıra qara, şirə (südə – F.X.) sefid» dediyi üçün həmişə «kəlləsi küt», «fikri darısqal», «şəbüstərli dadaşlar və irticaçılar»ın söyüş, qarğış və hədə-qorxulara məruz qalmışdır: «O, bir zənburi-muzidir ki, münqarində həlva var» (6, 34), «Möcüzün nəbzin alıb söylədi doktor: Ey vay, etiqadın pozulub, tərk edib iman səni» (6, 81), «Möcüz özü başdan-ayağa eyibdir» (6, 109), «Möcüz, demədim mən sənə bihudə danışma?» (6, 114), «Öldürə Möcüzü allah, özü divana çəkə» (6, 218), «Midadi xəncəri-bürrandı Möcüzün, özü Şimr» (6, 265).

1921-ci ildə Nəcəfdə 18 illik dini təhsilini bitirib Şəbüstərə qayıdan (1, 77)

müctəhid Hacı Mirzə Kazım ağa Şəbüstərinin fitvası ilə isə Möcüz daha çox təqib və təhqirlərə məruz qalmış, yaradıcılığı lağa qoyulmuş, şərəf və ləyaqətinin alçaldılmasına cəhd edilmişdir. 1925-ci ildə «Molla Nəsrəddin» jurnalının verdiyi məlumata görə iş hətta o yerə gəlib çatıbmış ki, Hacı Mirzə Kazım ağa Möcüzün təkcə Şəbüstərdən yox, ümumiyyətlə, İrandan qovulmasını tələb edirmiş: «Hacı Mirzə Kazım ağa bu dəfə ... İrandan tələb edir ... Şəbüstərdə çoxdan bəri davam edən Əli Müxbir (Möcüz olmalıdır – F.X.) şair tərəfindən ağaya həkki-etiram olunmasına görə İrandan təbid olunsun» (11, 2).

1930-1933-cü illərdə irticaçıların Möcüzə hücumları daha da güclənir və sərtləşir. Bu o vaxt idi ki, artıq şairin səhhətində də müəyyən problemlər yaranmışdı. 1931-ci ildə dostlarından birinə ünvanladığı və ilk dəfə bizim tərəfimizdən tədqiqata cəlb olunan bir məktubundan nümunə gətirdiyimiz aşağıdakı sətirlər fikrimizi təsdiq edir: «Mənim bəşəxsi-halımı xəbər alsan, neçə dəfələr bu il əzrail əleyhissəlamla əlbəyaxa oldum. Qışda dondum-açıldım ... görəcək günüm varmış ki, ölmədim qaldım» (7, İş №19). Hacı Mirzə Kazım ağa müctəhidin təzyiqlərinin son həddə çatması nəticəsində fiziki cəhətdən zəifləyən şair mənəvi cəhətdən də sarsılmış, Şəbüstərdə qalıb yaşamaqdan bezərək bu «dar qəfəs»dən yaxa qurtarmağın yolları haqqında düşünməyə başlamışdır. Prof. M.T.Zehtabinin aşkara çıxardığı bir məlumat sarsıntılar içərisində yaşayan şairin çıxış yolunu Şahruda köçməkdə gördüyünü sübut edir. «1933-cü ildə Möcüzün bacanağı Xətibzadənin oğlu Şəfi xan xalasını (Möcüzün həyat yoldaşı Səriyyə xanımı – F.X.) görmək üçün Şəbüstərə gəlmiş və buranın ümumi vəziyyətini və Möcüzün həyatını görüb qayıdarkən atasına hekayət edir. Ağayi-Xətibzadə Möcüzə məktub yazaraq onu Şahrud şəhərinə dəvət edir» (13, 50). Möcüzün bacanağı Möhdəvi Nadir həqiqətən Şahrud şəhərində yaşamış və vaxtilə Qacarlar sarayında təsərrüfat işlərinə rəhbərlik etdiyi üçün «müdiril-nəzarə» ləqəbilə məşhur olmuşdur (7, İş № 29). Onun Möcüzə yazdığı məktub əlimizə gəlib çatmasa da, şairin öz dəsti-xətti ilə farsca yazdığı kiçik bir şeiri bu dəvət və onun şairdə doğurduğu təəssüratı dolğunluğu ilə əks etdirir: «Şahrud şəhərindən dostlardan bir sifariş gəldi ... Məktubu yüz dəfə təkrar-təkrar öpdüm və gözlərimə sürtdüm ... Axşamdan səhərədək gözümə yuxu getmədi ... Mən ölü idim, sənin məktubunu alanda sanki İsa peyğəmbər bədənimə ruh verdi, dirildim» (7, İş № 76).

Şairin Şahruda getməsinin təfsilatını əks etdirən üç əsəri əlimizə gəlib çatmışdır ... Məktub formasında yazılan bu əsərlərin heç birində şairin Şəbüstərdən Təbrizə gedişi, Təbrizdə kimlər tərəfindən qarşılanması və Şahruda yola salınması haqqında məlumat yoxdur. Ancaq bu şeirlərin birindən təkcə onu öyrənə bilirik ki, Möcüz Şəbüstəri avqust ayında (1933) tərk etmişdir: «Səriyyə xanımla verib qol-qola, Yayın axır ayında düşdük yola» (8, 346).

Tədqiqatçıların müəyyənləşdirdiyinə görə Möcüz Şəbüstərdən çıxanda pərəstişkarlarından 20 nəfər onu müşayiət etmiş (13, 50), Təbrizə çatan şair bir neçə gün dostu H.M.Naxçıvaninin evində qonaq qalmış, orada qısa tərcümeyi-halını yazmış, Ə.Naxçıvani isə onun bizə məlum olan son foto şəklini çəkmişdir (12, 106).

Möcüzün Şahruda köçməsinin təsvirini verən üç əsərin içərisində ilk dəfə tədqiqata cəlb etdiyimiz «Etdim vida cənabuvi çün leyli-taridə» misrası ilə başlayan məktubda isə şairin Təbrizdən yola salınmasından başlayaraq Şahrudda qarşılanması, müşahidələri, düşüncələri, keçirdiyi hislər, Şahrudun təbiəti, əhalisi və adət-ənənələri haqqında daha dolğun və ətraflı məlumat verir. Məktubdan birinci növbədə o aydın olur ki, Möcüz Şahruda qonaq kimi yox, güzəranını təmin etmək üçün haqqı ödənilən

hər hansı bir işlə məşğul olub heç kimə möhtac olmadan həmişəlik orada yaşamaq fikri ilə getmişdir. Məktubda indiyədək tədqiqatçıların diqqətindən yayınan Möcüzün həyat yoldaşı Səriyyə xanımla dialoqunu əks etdirən aşağıdakı söhbət fikrimizi əsaslandırmaq üçün kifayətdir: «Dünən xanımla danışdım. O deyirdi ki, sən gəlmişdin burada işləməyə, bəs nə oldu? Dedim ki, bəli, niyyətim o idi, lakin görürəm ki, burada hər kəs müftə yeyib pul da vermir, mən də yeyirəm. Məndən-səndən xərc alan da yoxdur. Yaxşı, mən nə iş görüm?» (7, İş № 29). Əslində Möcüzün bacanağı Möhdəvi Nadir onun hər hansı bir fiziki işlə məşğul olmasına razı olmamış, öz evində yaşamaq üçün ona hər cür şərait yaratmışdır. «Ağayi-Müdir çox tərbiyəli və nəcibdir ... Mənim üçün, Tükəzban üçün (Səriyyə xanım nəzərdə tutulur – F.X.) ayrı otaq veriblər» (7, İş № 29). «Etdim vida cənabuvi çün leyli-taridə» şeiri yazılan vərəqin haşiyəsində Möhdəvi Nadirin öz xətti ilə farsca yazdığı aşağıdakı sözlər isə sübut edir ki, o, Möcüzə təkcə bacanağı olduğuna görə yox, həm də yüksək insani keyfiyyətlərinə görə xüsusi qayğı göstərmişdir. «Sənintək həzrətin bəyənilmiş və vəsf olunmuş əxlaqı alçaq könlümə qul olma inamımı o qədər artırmışdır ki, daha əlası xəyala gələ bilməz ... Xəlil Möhdəvi Nadir» (7, iş № 29).

Şairin Şahruddan yazdığı məktublarından məlum olur ki, Möhdəvi Nadir onun qarşılanmasını da çox yüksək səviyyədə təşkil etmişdir. Təbrizdən yola salınan Möcüz 2 gün Tehranda Möhdəvi Nadirin yeznəsi Həmiddövlənin evində qonaq qalmış, ev sahibi onu paytaxtın bəzi yerləri ilə tanış etmişdir. Şahrudda şəxsən Mövdəvi Nadir tərəfindən böyük ehtiramla qarşılanan şair, 10 gündən sonra Səriyyə xanımla birlikdə Şəfi xanın müşayiəti ilə Möminəbad kəndinə – öz püstə bağlarında məhsul yığımı ilə məşğul olan baldızı Lətifə xanımın görüşünə getmişdir. Sonra şairi Möhdəvi Nadirin yaxın qohumları və dostları, fars ziyalılarından Sadıq xan Möminəbadda, İntisari-Səltənə, Əbülfət xan, Etizad Əbdülabadda, Heşmət Salehabadda öz evlərinə qonaq dəvət etmişlər. Şairin verdiyi məlumata görə evində qonaq qaldığı dünyagörmüş «ixtiyar» Həmiddövlə Təbrizdə «vəliəhd yanında», «özü xoş, sözü-söhbəti abidar» olan İntisari-Səltənə «Müzəffərəddin şahın sarayında» xidmət etmiş, «gözəl kitabxanası» olan Heşmət isə «Firəngə gedib həm bə şahi-Qacar» (7, İş № 29). Möcüzün Azərbaycan dilinə bələd olan həmin fars ziyalıları ilə söhbətləri şübhəsiz ki, onun məlumat dairəsinin genişlənməsinə təsirsiz qalmamış, yazacağı şeirlərə yeni motivlər əlavə etmək üçün isə ona müəyyən ideyalar vermişdir. Şair bu görüşlərdə həm də «bişümar» «qəzəli-abidar»ını «bülbül kimi» oxumaqla fars ziyalılarını öz düşüncələri və ideyaları ilə tanış etmişdir.

Möcüzün dostlarına yazdığı məktublarında Şahrud mühiti haqqında da dolğun məlumatlara rast gəlirik. Şair ilk növbədə Şahrudun füsunkar təbiəti və gözəlliyi ilə əhalisi arasında çox kəskin bir təzad olduğunu vurğulayır: «Çoxlu bağları var. Hamısı ərik və üzüm bağıdır ... Xiyabanın sağ və solundan su keçir. Axan su çox güclü, saf və parlaqdır. İki tərəfində söyüd, çinar və qələmə ağacları göylərə ucalıbdır ... Havası çox safdır ... Dağlar şəhərə yapışıbdır (7, İş № 29) ... Vəli, xəlqi kəmxəndəvü tündbar, Soyuqqanlıdır ingilislər kimi» (8, 341).

Möcüz Şahrudun farsdilli əhalisinin bu cür xasiyyətindən narazı qalsa da, onların şəbüstərlilərə nisbətən sərbəstliyi, xurafat və cəhalətdən azad olması, qadınları cəmiyyətdən təcrid etməmələrini bəyənmiş və alqışlamışdır.

Möcüzün ahıl çağında ev-eşiyini ataraq birdən-birə adət-ənənələrinə vərdiş etmədiyi yad bir mühitə – özü də doğma ana dilinin işlənmədiyi bir mühitə düşməsi və uzun illər boyu qazandığı sədaqətli dostlarının əvəzini «kəmxəndəvü tündbar»

(qaşqabaqlı), «ingilislər kimi soyuqqanlı» şahrudluların içərisində tapa bilmədiyi üçün tənhalaşması əhval-ruhiyyəsinə çox güclü mənfi təsir göstərərək onu mənəvi böhrana salmaqla yanaşı, yaradıcılığında da bir durğunluğa gətirib çıxarmışdır. Şairin Şahrudda yaşayarkən ictimai eybəcərliklərin ifşasına həsr etdiyi bircə şeiri də əlimizə çatmamışdır. Şübhə etmirik ki, orada yazdığı və itib-batması güman edilən şeirləri içərisində də kəskin məzmunlu satiraları olmamışdır. Bizcə, bunun bir neçə səbəbi vardır: 1. Şahrudun yeni mühitində hələ yaxşı tanımadığı farsların əhatəsində yaşaması və ehtiyatlanması. 2. Hədsiz hörmət və ehtiramını gördüyü və yaşadığı bölgədə böyük nüfuz sahibi olan bacanağı Möhdəvi Nadiri hələlik narazı salmamaq niyyəti. 3. Doğma Şəbüstəri tərk etdiyi üçün psixoloji gərginliyi, mənəvi sarsıntıları və şiddətlənən xəstəliyi. Lakin bütün bunlara baxmayaraq, şairin Şahrud şeirlərində bəzi ictimai yaramazlıqlara münasibəti və etirazı da diqqəti cəlb edir. Məsələn, «Şahruddan məktub» şeirində yerli əhalinin «yüzdə onunun tiryəki, yüzdə beşinin şürbi» olmasından kədərlənərək yazır: «Edər axir İranı bu hal tarü mar» (6, 292). İnsanların laqeydliyi, bahalıq, gəlin-qayınana münasibətlərini tənqid edən misraları da bu qəbildəndir.

Möcüzün Şahrudda yazdığı həm mətbu, həm də qeyri-mətbu şeirlərinin hamısına («Etdim vida cənabuvi çün leyli-taridə», «Şahruddan məktub» (2 şeir), «Əli can», «Fəraqi-dustan», «Məmmədəliyə məktub») daha çox lirik ovqat hakimdir. Biz bu şeirlərdə ənənəvi olaraq tez-tez rast gəldiyimiz eybəcər satirik obrazlarla yox, yurdundan didərgin düşən, dostlarının ayrılığına dözə bilməyən, təbiətin füsunkar gözəlliklərindən belə qəlbi şadlanmayan, dünyanın vəfasızlığından şikayətlənən və «ciyəri parə-parə» olan lirik bir qəhrəmanla rastlaşırıq. Bu qəhrəmanın prototipi dramatik ömür yolu keçərək həyatı 3 sentyabr 1934-cü ildə Şahrudda, demək olar ki, faciəvi sonluqla bitən M.Ə.Möcüzün özü idi.

Beləliklə, deyilənlərdən aydın olur ki, Möcüzün həyatının bir illik Şahrud mərhələsi onun mənəvi sarsıntıları, yaradıcılığının durğunluq dövrünə qədəm qoyması və ömrünün sona çatması ilə səciyyələnir.

## ƏDƏBİYYAT


1. Fərğani M.C. Müxtəsəri-əz tarixe-Şəbüstər (məhdi-fərhəng və əbrare-an). Tehran: Enteşarate-asare-moaser. 1381 ş. 175 s.
2. Xəlilov F. M.Ə.Möcüzün avtoqrafları// «Azərbaycan SSR EA-nın Xəbərləri (ədəbiyyat, dil, incəsənət seriyası)». Bakı: 1980, №2, s. 65-70.
3. Qurraie H.S. Modernity and Identity in Azeri Poetry: Mo`juz of Shabustar and the İranian Constitutional Era. Doktorluq dissertasiyası. Vaşinqton Universiteti. 1997, 268.
4. Məmmədli Q. Mirzə Əli Möcüz (müqəddimə)/ M.Ə.Möcüz. Əsərləri. Bakı: Yazıçı, 1982, s. 5-18.
5. Möcüz M.Ə. Divanı / Redaktor Hüseyn Əlizadə. 2 cilddə. Bakı: Günəş, 2006, I c., 400 s; II c., 400 s.
6. Möcüz M.Ə. Əsərləri / Toplayanı, tərtib edəni, izahların müəllif Q.Məmmədli. Bakı: Yazıçı, 1982, 350 s.
7. Möcüz M.Ə. Müxtəlif avtoqrafları. S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi. M.Ə.Möcüzün fondu № 454, siy. 1, İş № 1-121.
8. Möcüz M.Ə. Seçilmiş əsərləri / Toplayan və tərtib edən Q.Məmmədli. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1954, 358 s.
9. Niqabi M. Şəbüstərli Mirzə Əli Möcüz. «Ərk» qəz., Təbriz: 1992, 15 iyun.
10. Şeyda Y. Şəbüstərli Möcüz haqqında qısa məlumat/ Şəbüstərli Mirzə Əli Möcüz. Tazə və çap olunmamış əsərləri. Toplayanı Y.Şeyda. III c. Təbriz: Azərbaydaqan, ilsiz.

11. Şəbüstər radiosu. İmzasız / Molla Nəsrəddin jur., Bakı: 7 fevral 1925, № 6, s. 2-10.
12. Zehtabi M.T. Mirzə Əli Möcüzün Bakı çapı // Vaqlıq jur., Tehran: 1990, № 4, s. 93-106.
13. Zehtabi M.T, Şəbüstərli Mirzə Əli Möcüzün həyatı// Əhrar jur., Təbriz: fevral 2002, s. 49-51.

## ШАХРУДСКИЙ ПЕРИОД ЖИЗНИ МИРЗА АЛИ МОДЖУЗА

**Ф.Ю.ХАЛИЛОВ**

**РЕЗЮМЕ**

В статье впервые описывается Шахрудский период жизни (1933-1934 гг.) М.А.Моджуза.

Автор, основываясь на новые факты и источники, приходит к такому выводу, что однолетний Шахрудский период жизни М.А.Моджуза характеризуется душевной растерянностью, застоем в творчестве и вступлением в последние годы жизни.

## SHAHRUD PERIOD IN MIRZA ALI MODJUZ’S LIFE

**F.Y.KHALILOV**

**SUMMARY**

Comprehensive information regarding the Shahrud period in M.A.Modjuz’s life (1933-1934) is presented in the article for the first time.

Basing upon new sources and facts, the author draws such a conclusion that a year long Shahrud period in Modjuz’s life is characterized with moral shocks, stagnation in literary activity and the last years of his life.